*AMEA Filologiya və sənətşünaslıq, 2024, № 2* *ISSN 2663-4368*
*Səhifə: 74-79* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2024.2.74*

# Nəriman Süleymanovun uşaq hekayələrində milli özünüifadə formulları

**Şöhrət Məmmədova**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://orcid.org/.0009-0006-6553-6385
E-mail: sohret.nesirova24@gmail.com

**Annotasiya.** Nəriman Süleymanov XX əsr uşaq nəsrinin ən parlaq sənətkarlarından biridir. Onun yaradıcılığı təxminən əllinci illərin əvvəllərindən ədəbi-mədəni mühitin marağına səbəb olmuş, müxtəlif səpkili nəsr örnəkləri mətbuat səhifələrində təhlilə gətirilmişdir. Xalqın zəngin folklor mədəniyyətinə köklənən sənətkar uşaqların qəlbinə elə ilk vaxtlardan yol tapmış, rəngarəng mövzulu hekayələri ilə ədəbiyyata öz töhfələrini vermişdir. Özünəməxsus üslubu, əksetdirmə modelləri, orijinal düşüncə tərzi, xalq simvolikasından gələn normativlər bir qayda olaraq ədibin əsərlərində artan templə özünü göstərmişdir.
Nağıl, rəvayət, məsəl, atalar sözü, yanıltmac, tapmaca, xalq mərasimləri, uşaq folkloru, dastan, sanama, lətifə, təmsil və s. kimi folklor nümunələri bir qaynaq olaraq N.Süleymanovun yaradıcılığını əvvəldən axıra qədər izləmişdir. “Balaca atlı” (1956), “Qaraçı qızı” (1960), “Qocalar və uşaqlar” (1964), “Sovqat” (1965), “Növruz gülü” (1966), “Yetər nənə” (1970), “Babamın bağı” (1974), “Göy qurşağı” (1975), “Tək çiçək” (1979) və s. kitablarındakı bədii nümunələr bütün məzmunu ilə uşaq fantaziyasını, istək və arzularını, həyata baxışını və əlçatmazlıqlarla dolu iç aləmini dərkə və ifadəyə köklənir.
Mətn//mətn, mətn//mühit, mətn//subyekt səviyyəsində əsaslı təsəvvürlə diqqət cəlb edən bu nümunələr üslub özünəməxsusluğu, simvolik işarələnmələr, etnopotensiyanı ifadə modelləri və s. kontekstində əsaslı bir müəyyənliyə bağlanan məzmun xətləri, milli koloriti ehtiva etmək məramı ilə diqqətçəkici təsəvvür formalaşdırır. Bütün aspektləri ilə tərbiyəvi məzmun daşıyır və arxaik qatdan gələn təsəvvürləri gələcək nəslə aşılamaq məqsədi daşıyır.
**Açar sözlər:** Nəriman Süleymanov, uşaq nəsri, klassik ənənə, folklor mədəniyyəti, nağıl təhkiyəsi

**Məqalə tarixçəsi:** göndərilib – 19.11.2024; qəbul edilib – 30.11.2024

# Natıonal self-expressıon formulas ın the chıldren's storıes of Narıman Suleymanov

**Shohrat Mammadova**
Doctor of Philosophy in Philology, Associate Professor
Azerbaijan State Pedagogical University
https://orcid.org/.0009-0006-6553-6385
E-mail: sohret.nesirova24@gmail.com

**Abstract.** Nariman Suleymanov is one of the brightest artists of children's prose of the 20th century. His creative talent attracted the interest of the literary and cultural environment from the beginning of the fifties, and his prose samples of various styles were analyzed in the press pages. Rooted in the rich folklore culture of the people, the artist found his way into the hearts of children from the very beginning, and contributed to literature with his colorful stories. As a rule, his unique style, reflection models, original way of thinking, norms from folk symbolism have manifested themselves in the works of the writer at an increasing pace.
Tales, narratives, parables, proverbs, riddles, riddles, folk ceremonies, children's folklore, sagas, recitations, anecdotes, fables, etc. as a source of folklore examples followed N. Suleymanov's creativity from the beginning to the end. “Balaca atlı” (1956), “Qaraçı qızı” (1960), “Qocalar və uşaqlar” (1964), “Sovqat” (1965), “Növruz gülü” (1966), “Yetər nənə” (1970), “Babamın bağı” (1974), “Göy qurşağı” (1975), “Tək

çiçək" (1979) and others the artistic examples in his books are rooted in the understanding and expression of children's fantasy, wishes and dreams, outlook on life and inner world full of inaccessibility.
These examples at the level of text//text, text//environment, text//subject which are connected to a fundamental certainty in their context, form a remarkable image with the intention of containing content lines and national color. It has an educational content in all its aspects and aims to instill ideas from the archaic layer to the next generation.
**Keywords:** Nariman Suleymanov, children's prose, classical tradition, folklore culture, fairy tales

**Article history:** received – 19.11.2024; accepted − 30.11.2024

## Giriş / *Introduction*

Uşaq ədəbiyyatının inkişaf mənzərəsi bütün parametrlərdə zənginləşmələrə və iyirminci yüzillik səviyyəsində əsaslı yaradıcılıq axtarışlarına dayanır. S.M.Qənizadə, A.Səhhət, M.Mahmudbəyov, M.Ə.Sabir, M.Hadi, M.Rzaquluzadə, A.Şaiq, R.Əfəndiyev, S.S.Axundov, M.M.Seyidzadə, S.Vurğun, M.Cəlal, M.Dilbazi, Ə.Abbasov, Z.Cabbarzadə, Q.İlkin, X.Əlibəyli, T.Elçin, İ.Tapdıq, M.Günər, T.Mahmud, X.Hasilova, Ə.Babayeva, B.Həsənov, Ə.Əhmədova və başqalarının yaratdığı çeşidli ədəbiyyat örnəkləri [1] onilliklər boyu axtarışlara, zənginləşmənin polifonik axarına dayanır. N.Süleymanov da məhz bu ənənə üzərində pərvəriş tapan sənətkar kimi müxtəlif səciyyəli bədii nümunələri ilə uşaqların mənəvi aləmini, etnoqrafik düşüncədən gələn həyat təsəvvürlərini, tərbiyə üsullarını özünəməxsus şəkildə təqdimə əsaslanır. Bunların ümumi şəkildə açımı mövzu və uslub müstəvisində folklor və yazılı ədəbiyyat kontekstində təhlili və sistemli araşdırmaları zərurətə çevirir.

## Əsas hissə / *Main Part*

Bütün ruhu və düşüncəsi ilə uşaq fantaziyasında olanları və ucu-bucağı görünməyən uşaq marağını əks etdirməyə həssaslıq nümayiş etdirən ədib hər bir hekayəsi ilə nəyisə çatdırmaq məqsədində olmuşdur. "Tut ağacı", "Qoca və uşaqlar", "Ən vacib məsələ", "Qağayılar gülür", "Novruz gülü", "Qaşov", "Məşq", "Peşmançılıq", "Mahnı çağırır", "İsti ocaq", "Naxırçı oğlu", "Qış", "Qar topaları", "Ana və oğul", "Bir qış günü" və s. hekayələr deyim tərzi, mətn unikallığı ilə uşaqların təsəvvüründən çıxışetmə ustalığı ilə diqqəti çəkir. "Əhvalat belə idi. Uşaqlar çayın o tayında ot biçmişdilər. İndi fikirləri bu idi ki, otu fermaya aparsınlar. Yoxsa, haçanacan, orada qalacaqdı. Amma kimdən xahiş edirdilərsə, bir şey çıxmırdı.

- Maşın quma batıb suda qalsa, necə olsun? – deyə şoferlər bu işə qol qoymurdular.

- Qorxuram təkər daşa-ağaca ilişə, – deyə həmin bu at arabasının sürücüsü qoca da boyun qaçırmışdı.

Araba onların bərabərinə çatınca uşaqlar qaçıb mindilər" [6, s.28-29]. Etnoqrafik cizgiləri ilə spesifikləşən bu hekayə kənd həyatını, qaynar yaşam tərzinin ümumi mənzərəsinin sadə və aydın şəkildə təqdimi ilə spesifikləşir. Qoca arabaçı ilə uşaqların söhbəti və onların maraqlarından çıxış etməklə aparılan sorğu-suallar maraq dairəsini, həyati təsəvvürlərini səciyyələndirir. Əmək tərbiyəsi timsalında ot biçimi, arabanın rənglənməsi və bu rəng seçimi ətrafında aparılan təhlillər müşahidələrə, müzakirə əsnasında daha yaxşı olanın seçiminə yönlənir.

Yazıçının hadisə axarında ot biçiminin ümumi mənzərəsini verməsi və xalq arasında dolaşan "Cırcırama yay-bahar, nəğmə oxur biqərar" mahnısını mətnə gətirməsi tipik səciyyəlidir. Xalq yaddaşında olan bu poetik örnəklərin mətnə gətirilməsi uşaq yaddaşında olanlardan çıxış etməklə bədii mətnə əlavə çalar qatır. "Ədəbiyyatda bədiilik, forma və məzmunun bədii vəhdəti, ideya aydınlığı, fikir bütövlüyü və lakonik ifadəsi, bədii obrazların

kamilliyi, bütün bunlarla yanaşı, ümumiləşdirmə və müasirlik kimi başlıca amillər uşaq ədəbiyyatının bədii dəyərini artırmışdır” [4, s.327-328]. N.Süleymanov da bunları bir prinsip olaraq əsas götürməklə orijinal nümunələr yaratmaq yolunu tutmuşdur. İstedadlı ədib bütün düşüncəsi ilə xalq həyatından, uşaqların bir tərəf kimi bu həyatda iştirakından və onları erkən yaşlarından mənimsəməyə köklənməsindən çıxış edir. “Atlar arabanı darta bilmirdilər.

- Suya atılın! Araba çevrilir – deyə qorxuya düşən Alxan yoldaşlarına qışqırdı. Yatmış qoca bu səsdən dik atıldı. Hadisə yerinə çatcaq cəld arabanın alt tərəfinə keçdi. Qoca çiynini arabanın yanına söykəyib qabağa itələyərək atları səslədi. Su güc gəlirdi.

- Hə! – deyə kəhəri haylayıb çiyni ilə arabanı bir də qabağa itələdi. Atlar tərpəndi.

Bir azdan onlar sahildə idilər” [6, s.37]. Göründüyü kimi, elat həyat tərzinin çeşidli tərəfləri, ağsaqqalın çətin vəziyyətdən necə çıxmaq təcrübəsi, ot biçini, onun arabaya yüklənib gətirilməsi, uşaqların bu prosesə cəlb edilməsi və baş verənlər bütün mahiyyəti ilə əməksevərlik, yoldaşlıq və s. kimi dəyərlərin mənimsədilməsinə köklənmişdir. Əmək tərbiyəsi yeniyetmələri əməyə hazırlamaq, sosial mahiyyətini dərk etmək, təbiətə qayğı münasibəti formalaşdırmaq, yaradıcı düşüncəni təlqin etmək və s. kimi məqsədlərə köklənir. Bunlar özü də bir dəyər, əxlaq, davranış, vəziyyətdən nəticə çıxarmaq kimi keyfiyyətləri aşılayır. “İnsan komalardan, mağaralardan kosmosa qədər böyük bir yaradıcılıq epopeyasını əmək sayəsində yaratmışdır. Əmək prosesində ağıllı baş əlləri, daha da ağıllanmış əllər başı fəaliyyətə, axtarışlara təhrik edir. İnsan öz ehtiyac və tələbatını əmək prosesində ödəyir. Ən böyük ixtiralar ehtiyacdan yaranmışdır. İstedad, qabiliyyət də özünü əməkdə büruzə verir” [9, s.230]. İstedadlı sənətkar N.Süleymanovun uşaq hekayələri bütün aspektləri ilə tərbiyəyə, təlqinə yüklənir və nəyisə çatdırmağı, aşılamağı məqsədə çevirir.

“Solmazın qazları”, “Qoca və uşaqlar”, “Naxırçı oğlu”, “Ana və oğul”, “Bir qış günü” və s. hekayələri sənətkarın uşaq dünyasının zənginliklərinə bələdliyinin göstəricisidir. Epik təhkiyənin dil və düşüncə fakturası bütün səviyyələrdə folklordan gələn deyim tərzini mənimsəməni və ondan çıxış etməyi məqsədə çevirir. Nağıl, rəvayət, əfsanə, atalar sözü, məsəl, xalq mərasimləri, əmək nəğmələri, uşaq oyunlarının sözlü hissəsi təbii prosesdə milli özünəməxsusluğun müəyyənlik kodu olaraq şifrələnir. Bütün sənətkarlar bu zənginlikdən müxtəlif səviyyələrdə və həm də imkanları daxilində bəhrələnirlər. N.Süleymanov da elat həyat tərzinin doğurduğu yaşam prinsipini, qaynarlığı və çeşidli normativləri təbii halında yazıya gətirməsi ilə diqqəti cəlb edir. “Qaşqabağı bulud kimi tutuldu, qaşları çatıldı, üzünə kədər dolu bir ifadə çökdü:

- Dədə, – deyə Nəsib atasının dizindən tutub silkələdi.

- Eh! Oğul, vaxt vardı, bir dəfə qol atanda çayı üzüb keçirdim. İndi... Davanın da bizə verdiyi xeyir bu oldu. O, üst köynəyinin qolunu geri çirmələyib, sol qolunu qabağa tutdu. Biləyində güllə yeri vardı, barmaqlarının üçü yumulu qalmışdı. – Bəlkə də camışlar o yana keçib. Nə eləyim, suya etibar yoxdur, qol da ki, işləmir.

Nəsib atasının bu vəziyyətinə ürəkdən acıdı. Onun kədərli üzünə baxa-baxa gözləri yaşardı.

Nəsib tez soyundu, paltarını kəmərinin arasına yığıb söyüd ağacının haçasına keçirdi və özünü suya atdı” [6, s.59]. Məsələnin mahiyyəti özlüyündə bir neçə istiqaməti sərgiləyir və ciddi anlamda onların özündə nələri ehtiva etməsini diqqətə çatdırır:

a) milli aspektə ailə münasibətlərini və onun əhatələdiyi məzmunu;

b) əxlaq, tərbiyə müstəvisində nizamın bir prinsip olaraq qorunuşunu;

c) etnoqrafik kontekstdə yaşam tərzini, süfrə mədəniyyətini;

ç) tarixilik baxımından müharibənin (İkinci Dünya müharibəsinin) acılarını;

d) bacarıq, qabiliyyət, cəsarət, mərdlik timsalında övlad tərbiyəsini və s.

N.Süleymanovun “Ömrün iki payızı” [7], “Tərs külək” [8] və s. kitablarına toplanmış nəsr nümunələri yazıçı intelleksiyasını, mətn fenomenliyini, janr məzmununu, sözün məna yaddaşını əks etdirmək baxımından həm də üslub özünəməxsusluğunu nəzərə çatdırır. “Qələmə aldığı hekayələrdə müasir həyatımızın bir sıra aktual problemlərinə toxunmuş, yaddaqalan maraqlı lövhələr, bitkin obrazlar yaratmışdır.

Onun hər bir hekayəsində insan həyatının gərəkli, yeni nəsil üçün nümunəvi anları uyarlı ifadələrlə təsvir olunur, təsvirin reallığı hesabına heyrətamiz mənzərə yaranır.

N.Süleymanovun kiçik hekayələr axtarışlarında xarakterik bir cəhəti nəzərə çarpır. Müəllif adi bir detaldan istifadə edərək ümumiləşmə aparır. Gözəlliyin insan mənəviyyatına, bütövlükdə insanın daxilən təmizlənməsinə təsiri probleminə toxunur" [3, s.358]. Xalqın zəngin düşüncəsindən gələn üzvlənmələr, hadisə və əhvalatları uğurlu tərzdə təqdim mexanizmləri, dil rəvanlığı, əhvalat xarakteri bütün ahəngi ilə ədibin əsərlərində özünü göstərir. Bədii düşüncənin alt qatına hopmuş metatekstuallıq əfsanə, rəvayət, nağıl, məsəl, lətifə formullarında qəlibləşmiş modellərlə mətnboyu hadisə və əhvalatlara əlavə əsrarəngizlik gətirir.

Yaradıcı istedadı ətrafında təhlillər aparan nəzəriyyəçilər üslub məsələlərinə xüsusi həssaslıq göstərirlər və qeyd edirlər ki, "üslubun özü də istedad faktıdır, fikirdir: üslub fikrin relyefliyi, aydınlığıdır; üslubda insan bütövlükdə ifadə olunur; üslub şəxsiyyət kimi həmişə orijinaldır" [5, s.39]. N.Süleymanovun yazıçı üslubu bütün mahiyyətilə xalq düşüncəsində olan sintaktik fiqurların işləkliyinə, aydın təsəvvür formalaşdırmağa, uşaq dünyasını ifadəyə köklənir. Ayrı-ayrı zaman kəsiklərində yaranmış hekayələri bunu aydınlıqla göstərir və dil, üslub özünəməxsusluğu ilə cocuqları, yeniyetmələri milli davranış normaları əsasında tərbiyəyə yönləndirir.

Ümumiyyətlə, "Azərbaycan ədəbiyyatı tarixində folklor və yazılı ədəbiyyatın bir-birindən istifadəsi, qidalanması qarşılıqlı olmuşdur. Belə ki, folklor yazılı ədəbiyyatın əsas mənbəyi olduğu və bütün inkişaf prosesində ədəbiyyata təsir etdiyi kimi, ədəbiyyatın da öz növbəsində şifahi yaradıcılığa mühüm və səmərəli təsiri görünməkdədir. Bu təsir dildə, formada, ifadə vasitələrində, xalqı maraqlandıran, düşündürən bir sıra müasir ideya və motivlərdə özünü göstərmişdir. Xalqa yaxın olan sənətkarlar onun yaradıcılığına da biganə qala bilməmiş, folkloru hər cəhətdən faydalı bir qaynaq hesab etmişlər" [2, s.466]. N.Süleymanov da elat həyat tərzindən gələnləri bir vətəndaş məsuliyyəti ilə dərk etmiş, uşaq yaşlarından görüb yaşadıqlarını müxtəlif hadisələr zəminində eyni ahənglə uşaq oxucularına təqdim etmişdir. "Balaca atlı", "Tək çiçək", "Qaraçı qızı" ,"Sovqat", "Yetər nənə", "Göy qurşağı", "Babamın bağı" və s. kitablarına toplanmış hekayələr bütün aspektlərdə körpələrin, cocuqların, yeniyetmələrin etnokulturoloji mədəniyyət üzərində formalaşması düşüncəsinə köklənmişdir.

Ailə institutunun müqəddəs nizamı, böyük-kiçik münasibətləri, ana məhəbbəti, mərhəmətlilik və xeyirxahlıq kimi dəyərlər ədibin uşaq hekayələrində özünü müxtəlif səpkidə göstərir. Məsələn, "Ana və uşaq" hekayəsində ananın xəstələnməsi, uşaqların bu xəstəlik baxımından narahatlıqları və zəifləmiş, haldan düşmüş analarına kömək göstərmək istəkləri hekayədə təsiredici bir formada təqdim edilir. "Bəsti xala şalı çiyninə salıb eyvana çıxdı. O, yarım ay olardı ki, yorğan-döşəkdə yatırdı. Soyuqlamışdı. Həkim dava-dərman etdikdən sonra yaxşılaşdı. İndi yavaş-yavaş qapı-bacaya çıxırdı. Eldar cəld anası üçün stul gətirdi. O, əyləşdi, əlini oğlunun çiyninə qoyub oxşadı. Eldar aşağı əyləşdi, başını anasının dizinin üstə qoydu.

- Anacan, indi necəsən?

- Yaxşıyam, oğul, – deyə ana dilləndi. Sonra kəndin qarşı tərəfində olan meşəyə baxıb sözünə əlavə etdi.

- Ay oğul, könlümə elə zoğal düşüb ki..." [6, s.76-77]. Həcm etibarilə kiçik, məna tutumu baxımından lazımı qədər geniş məzmunlu bu hekayə ana və övlad məhəbbəti timsalında əsaslı bir təsəvvürə bağlanır. Ananın bir kəlmə sözündən sonra Eldarın fədakarlığı tərbiyəvi məzmunu ilə nümunədir. "Eldar tövşüyə-tövşüyə anasına yaxınlaşdı və səbətini ona tərəf uzatdı:

- Anacan, sənin üçün zoğal gətirmişəm.

Elə bu anda Eldarın tikandan cızılmış əlləri anasının gözlərinə sataşdı.

- Vay, vay, Eldar, əlini nə pis yaralamısan. Zoğaldan ötəri adam belə edərmi?

- Yox! Anacan, ağrımır, balaca cızılıb, – deyə Eldar əlini arxasında gizlətdi. Buna fikir vermə zoğal ye, tez sağal. Axı sən xəstə yatanda mən çox darıxıram.

Ana arıqlamış barmaqlarını Eldarın qara saçlarında gəzdirib oğlunu sinəsinə sıxdı" [6, s.78]. Ümumiyyətlə, uşaq ədəbiyyatı bütün səviyyələrdə tərbiyəvi məzmunu ilə uşaqların dünyagörüşünü, istək və arzularını, onların

həyata baxışlarını əks etdirmək məqsədi daşıyır. Bədii nəsrin gəldiyi yol öz tarixi-mədəni axarı ilə uşaq fantaziyasını, hüdudsuz arzu və istəkləri, həyatı öyrənmək və onu dərk marağını əhatələmək istəyinə yüklənir. N.Süleymanovun hekayələri də ümumi ruhu ilə xalqın məişətini, etnoqrafik zənginliyini, tərbiyə kontekstində təsəvvürlərini əhatələmək baxımından müstəsna informasiya zənginliyi ilə səciyyələnir.

## Nəticə / *Conclusion*

İyirminci yüzilliyin əllinci illər uşaq nəsri timsalında ədəbiyyata qədəm qoyan N.Süleymanov təxminən qırx illik yaradıcılığı ilə ədəbi-mədəni mühitə öz töhfələrini vermişdir. Xalq ədəbiyyatının zəngin mədəniyyət fondu, nağıl, rəvayət, əfsanə, dastan, lətifə, məsəl, yanıltmac, uşaq oyunları və s. səviyyəsində diqqətçəkən bu zənginlik yazı mühitində bir qaynaq funksiyasını yerinə yetirir. Klassik ədəbiyyatın görkəmli nümayəndələri kimi, N.Süleymanov da bu zəngin xəzinədən istedadı müqabilində bəhrələnməklə bədii nəsrə öz töhfələrini vermişdir. Bir-birindən maraqlı hekayələri ilə uşaqların sevimlisinə çevrilən ədibin yaradıcılığı milli özünüifadənin nümunəsi olaraq müxtəlif kontekstlərdə araşdırmaları zəruriləşdirir.

## Ədəbiyyat / *References*


1. Azərbaycan klassik uşaq ədəbiyyatı antologiyası. – Bakı: Elm, 1998. – 300 s.
2. Əfəndiyev, P. Azərbaycan şifahi xalq ədəbiyyatı. – Bakı: Maarif, 1992. – 477 s.
3. Xəlil, Z., Əsgərli, F. Uşaq ədəbiyyatı. – Bakı: ADPU, 2011. – 498 s.
4. Namazov, Q. Azərbaycan uşaq ədəbiyyatı. – Bakı: Bakı Universiteti, 2007. – 444 s.
5. Novikov, L.A. Antonimiya v russkom yazıke. – Moskva: MQU, 1973. – 292 s.
6. Süleymanov, N. Novruz gülü. – Bakı: Azərnəşr, 1966. – 108 s.
7. Süleymanov, N. Ömrün iki payızı. – Bakı: Gənclik, 1986. – 184 s.
8. Süleymanov, N. Tərs külək. – Bakı: Yazıçı, 1988. – 216 s.
9. Talıbov, Y.R., Ağayev, Ə.A., İsayev, İ.N., Eminov, A.İ. Pedaqogika. – Bakı: Maarif, 1993. – 292 s.
10. Vəliyev, V. Azərbaycan folkloru. – Bakı: Maarif, 1985. – 414 s.


## Формулы национального самовыражения в детских историях Наримана Сулейманова


**Шохрат Мамедова**
Доктор философии по филологии, доцент
Азербайджанский Государственный Педагогический Университет
https://orcid.org/.0009-0006-6553-6385
E-mail: sohret.nesirova24@gmail.com



**Резюме.** Нариман Сулейманов – один из самых ярких художников детской прозы 20 века. Его творческий талант с начала пятидесятых годов вызывал интерес литературной и культурной среды, а образцы его прозы различных стилей анализировались на страницах прессы. Уходящий корнями в богатую фольклорную культуру народа, художник с самого начала нашел путь к сердцам детей, внес свой вклад в литературу своими красочными рассказами. Как правило, его неповторимый стиль, модели отражения, оригинальный образ мышления, нормы народной символики проявляются в творчестве писателя во все большей степени.

Сказки, повести, притчи, пословицы, загадки, загадки, народные обряды, детский фольклор, саги, декламации, анекдоты, басни и.т.д. в качестве источника фольклорных примеров прослежено творчество Н.Сулейманова от начала и до конца. “Balaca atlı” (1956), “Qaraçı qızı” (1960), “Qocalar və uşaqlar” (1964), “Sovqat” (1965), “Növruz gülü” (1966), “Yetər nənə” (1970), “Babamın bağı” (1974), “Göy

qurşağı” (1975), “Tək çiçək” (1979) и другие художественные образцы в его книгах коренятся в понимании и выражении детской фантазии, желаний и мечтаний, взглядов на жизнь и внутренний мир, полный недоступности.
На уровне текст//текст, текст//среда, текст//субъект, эти истории, связанные с фундаментальной самобытностью в своем контексте, образуют замечательный образ, призванный передать тематические линии и национальный колорит. Они имеют образовательное содержание во всех его аспектах и направлен на то, чтобы привить идеи из архаичного аспекта следующему поколению.
**Ключевые слова:** Нариман Сулейманов, детская проза, классическая традиция, фольклорная культура, сказки